# Azərbaycan Ağsaqqallar Şurasının növbədənkənar VI qurultayı keçirilmişdir

Fevralın 16-da Azərbaycan Ağsaqqallar Şurasının (AAŞ) növbədənkənar VI qurultayı keçirilmişdir.

Qurultayda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları iştirak etmişlər.

Qurultayı açan Şuranın sədr müavini, Milli Məclisin deputatı Fəttah Heydərov tədbirdə iştirak etmək üçün seçilmiş 186 nəfərdən 179-nun qeydiyyatdan keçdiyini bildirmişdir.

Azərbaycanın dövlət himni səsləndirilmişdir.

Sonra ulu öndər Heydər Əliyevin, Şuranın sabiq sədri akademik Budaq Budaqovun, eləcə də V qurultaydan ötən dövrdə dünyasını dəyişmiş üzvlərin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlət başçısı İlham Əliyevin qurultaya təbrik məktubunu oxumuşdur.

Şuranın sədr müavini Bayram Yusifov ötən V qurultaydan sonra görülən işlər barədə qurultay iştirakçılarına hesabat vermişdir. Sonra AAŞ-nın təftiş komissiyasının sədri Tofiq Mirzəyev, mandat komissiyasının sədri Sadiq Abdullayev hesabat məruzələri ilə çıxış etdikdən sonra məruzələr ətrafında müzakirələr olmuşdur. Müzakirələr zamanı çıxışlarda AAŞ-nın sədr müavini, millət vəkili Fəttah Heydərovun böyük təşkilatçılıq və idarəçilik qabiliyyətinə malik olduğu vurğulanmış, Azərbaycan Ağsaqqallar Şurasının sədri vəzifəsinə onun namizədliyi irəli sürülmüşdür.

Qurultayda Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov cəmiyyətdə ağsaqqal nüfuzundan, onların tarixi rolundan, hər bir cəmiyyətin inkişaf strategiyasının müəyyənləşməsində onların tutduğu mövqedən danışmışdır.

Qurultayda AAŞ-nın Nizamnaməsinə əlavə və dəyişikliklər edilmiş, təşkilati məsələyə baxılmış, şuranın rəhbər orqanları seçilmişdir.

Fəttah Səməd oğlu Heydərov açıq səsvermə yolu ilə Azərbaycan Ağsaqqallar Şurasının sədri seçilmişdir. F. Heydərov onu bu vəzifəyə seçdiklərinə görə qurultay iştirakçılarına minnətdarlığını bildirmiş və şuranın qarşıda duran vəzifələrindən danışmışdır

Sonra AAŞ-nin 67 nəfərdən ibarət Məclisi, nəzarət-təftiş komissiyasının və idarə heyətinin tərkibi seçilmişdir.

Qurultayın qətnaməsi oxunmuşdur.

Azərbaycan Ağsaqqallar Şurasının (AAŞ) növbədənkənar VI qurultayının nümayəndələri Prezident İlham Əliyevə müraciət qəbul etmişlər.

Bununla da AAŞ-nin növbədənkənar VI qurultayı öz işini başa çatdırmışdır.

### Səyyar qəbullar

# Kəndlərimiz inkişaf və tərəqqiyə doğru

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev növbəti səyyar qəbulu Çuxur Qəbələ kəndində keçirdi. Qəbula kənd sakinləri, ziyalılar, sahibkarlar, bələdiyyə üzvləri və əhali ilə sıx bağlı olan təşkilatların rəhbərləri dəvət olunmuşdular.

Qəbul Çuxur Qəbələ kənd



tam orta məktəbində təşkil olunmuşdu. Tədbiri giriş sözü iilə açan cənab başçı əvvəlcə iştirakçıları salamladı. Görüşün məqsədi, onun xüsusi əhəmiyyətindən danışdı. Qeyd etdi ki, görüşlər rayon icra hakimiyyətində tərtib edilmiş qrafik əsasında keçirilir.

Kənd və qəsəbələrdə belə görüşlərdə əhalinin təşəbbüslərini, şikayətlərini, arzu və təkliflərini dinləmək xüsusi əhəmiyyət kəsb edir.

Kənd inzibati ərazi nümayəndəsi Abdulla Kərimov əhali adından qonaqları salamladı, onlarla görüşə gəldiyi üçün cənab başçıya minnətdarlığını bildirdi.

Kənd haqqında məlumat verən nümayəndə qeyd etdi ki, burada 240 kəndli təsərrüfatında 1.025 nəfər əhali yaşayır. Kənddə bələdiyyə, tam orta məktəb, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, qızıl balıq yetişdirmə



zavodu, Qəbələ tarix bədii qoruğu, bir neçə ticarət obyektləri fəaliyyət göstərir.

Əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq və bitkiçilik məhsulları istehsalıdır.

Kənddə payızlıq əkini optimal müddətdə başa çatdırılmışdır. 172 hektar buğda, 180 hektar isə arpa toxumu səpilmişdir. Bu da kənd əhalisinin taxıl məhsullarına olan ehtiyacını ödəyir. Kənddə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq bütün istiqamətlərdə tərəqqi davam edir.

Görüşdə qeyd olundu ki, görülən işlərlə yanaşı kənddə hələ problemlər də vardır. Yeni salınan yaşayış massivində bir ədəd artezian quyusunun qazılmasına və qaz xəttinin çəkilməsinə ehtiyac duyulur.

Tədbirin sonunda Səbuhi Abdullayev çıxış edərək, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin, yeni iş yerlərinin açılmasının möhtərəm Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğunu qeyd etdi, hər bir kənddə sosial-iqtisadi tərəqqinin bundan sonra da davam edəcəyini bildirdi.

**O. MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# «Xalqla əlaqənin yeni forması»

***«Azərbaycan» qəzetinin jurnalist araşdırmalarına görə bu sahədə Qəbələ Rayon İcra Hakimiyyəti hər bir halda birinci yerdə qərarlaşmışdır***

Xalqla əlaqənin yeni və ən sürətli forması olan «Elektron hökumət»in tətbiqi artıq ölkədə geniş miqyasda həyata keçirilməkdədir. Azərbaycanda mətbuat üzrə baş tribunalardan biri və birincisi— «Azərbaycan» qəzeti respublikadakı şəhər və rayon icra hakimiyyətlərinin bu sahədəki fəaliyyətləri üzrə araşdırmalar apararkən Qəbələ rayonu hər bir halda birinci yerdə qərarlaşmışdır.

Qeyd edək ki, «Elektron hökumət» prosesinin tətbiqi üzrə ilk dövlət proqramı hələ 2005--2008-ci illəri əhatə edib. Bu zaman əsas istiqamət elektron hökumətə keçid üçün hazırlıq mərhələsi olub. Bu hazırlıq mərhələsinin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 11 avqust 2010-cu il tarixdə «Azərbaycanda rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010--2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)» təsdiq edilməsi haqqında sərəncam da imzalamışdır. Sərəncamda dövlət idarəçiliyinin bütün səviyyələrində İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) prosesinin tətbiqi, dövlət informasiya sistemləri və resurslarının formalaşdırılması, inkişaf etdirilməsi, dövlət orqanlarının göstərdiyi xidmətlərin operativliyinin, keyfiyyətinin, habelə dövlət idarəetmə mexanizminin səmərəliliyinin artırılması üçün «E-hökumət»in geniş tətbiqi, «bir pəncərə» prinsipi əsasında elektron xidmətlərin təşkili və s. nəzərdə tutulmuşdur.

«Azərbaycan» qəzeti yazır: «Bunlara rəğmən, artıq dövlət qurumlarında, idarə və müəssisələrdə elektron xidmətlərin tətbiqinə başlanılıb və dövlətimiz «Elektron hökumət»ə keçid dövrünü yaşayır. Bəs «Elektron hökumət» nədir?

Əvvəla deyək ki, «Elektron hökumət» və ya «E-hökumət» hər hansı bir ölkənin strukturlarının hamısı haqqında məlumatların hər bir vətəndaş üçün açıq olan şəbəkədə yerləşdirilməsi deməkdir. Yəni, hər bir vətəndaş hər hansı bir nazirlik və komitədən tutmuş mənzil-təsərrüfat idarəsi ilə məktəbə qədər olan idarənin mövcud durumu, həmin qurumlara müraciətin qaydalarını istənilən vaxt əldə edə bilməklə yanaşı təşkilatlara elə elektron rabitə vasitəsilə də müraciət ünvanlaya bilər. Hazırda dünyanın inkişaf etmiş ölkələrində «Elektron hökumət» fəaliyyət göstərir.

**(Ardı 6-cı səhifədə).**